ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# "MAŞININ QARŞISINA RAKET DÜŞDÜ, AMMA PARTLAMADI"

## Qazi Fəxri Ağayev: "Arxadan başqa qüvvə gəlib əvəz edəndə, döyüşənlər müəyyən qədər istirahət etməli idilər. Amma döyüşçülərimiz istirahətə getmək, yaralılarımız da döyüş bölgəsindən çıxmaq istəmirdilər"




**FOTOLAR:** Sabir Məmmədov / Global Media Group



TARİX
SÖHBƏTLƏŞDİ:
AYGÜN ASİMQIZI
aygunasimqizi@kaspi.az

"Hərbi xidmətdə tank əleyhinə taqım komandiri olmuşam. Ağdamda xidmət edirdim. Ağdamın Çıraqlı kəndində atəş mövqeyimiz var idi. Ermənilərin postu ilə üzbəüz idi. Çox yaxın məsafə idi, səslə danışmaq olurdu. Biz atəşkəs dövrünün tələblərinə uyğun olaraq, təmkin göstərirdik. Ancaq daxilən çox istəyirdim ki, onların layiqincə cavabını verək, torpaqlarımızı geri alaq, mən də o prosesdə iştirak edim".

Onun hərbi xidməti 2002-2004-cü illərə təsadüf edib. Arzusu hərbi xidmət dövründə yerinə yetmir. "Ürəyimdə qalmış o arzu 2020-ci ildə reallaşdı" deyir. İkinci Qarabağ Savaşı başlayanda, o da ordu sıralarına cəlb olunur, ilk gündən döyüşlərə qatılır. Söhbət qazi Fəxri Ağayevdən gedir. Bildirək ki, polkovnik F.Ağayev Fövqəladə Hallar Nazirliyinin Rəqəmsal texnologiyalar və innovasiyaların inkişafı Baş idarəsində Rəqəmsallıq və innovasiyalar idarəsinin rəisidir.

### DÜŞMƏNİN BƏLƏD OLDUĞU ƏRAZİDƏ DÖYÜŞMƏK...

F.Ağayev deyir ki, hərbi xidmətdən sonra ehtiyatda olan zabit kimi hər zaman içində o arzu olub: "Magistr təhsilimi başa vurub 2002-ci ildə zabit kimi hərbi xidmətə çağırıldım. 1,5 il xidmət etdim. Sonra artıq ehtiyatda olan zabit idim. Hər zaman o günü gözləyirdim ki, Ali Baş Komandan əmr versin, biz də ordu sıralarında olaq. O gün gəldi və müharibə başlayan kimi də ilk çağrılanlardan oldum. Belə şərəfli bir işdə payım olduğu üçün sevinirəm".

F.Ağayev deyir ki, düşmənin hər qarışına bələd olduğu ərazidə döyüşmək, irəliləmək heç də asan iş deyildi: "Elə ərazilərdə döyüşürdük ki, 30 ildir düşmən tapdağında olub. Həmin əraziləri düşmən gözəl tanıyırdı. Biz irəlilədikcə, bələd olmadığımız yerlərdə qısa zamanda təzə mövqe hazırlayırdıq. Döyüş zamanı mövqe dəyişmək də asan deyil. Deməli, Talış kəndi ətrafında ağır döyüş gedirdi. Məlumat daxil oldu ki, mövqeyiniz aşkarlanıb, sizin batareyanın durduğu yeri bir saat ərzində tərk etməlisiniz. 6 topdur, hər topun öz maşını, heyəti, mərmiləri var. Top batareyasının yerini dəyişmək o qədər də sürətli proses deyil. Amma qısa zamanda yeni mövqe hazırladıq və həmin ərazini tərk etdik. Axırıncı maşın ərazidən təzəcə aralanmışdı ki, köhnə mövqeyimizi vurdular".

> *"Döyüşçülərimizə baxanda görürdün ki, hər bir əsgər illər boyu bu qələbəni arzulayıb. Hava soyuq, yağışlı olurdu, amma bu çətinliklər gözə görünmürdü. Heç kim döyüş mövqeyini tərk etmək istəmirdi."*




### "BİZƏ RUH DÜŞKÜNLÜYÜ YAŞAMAQ OLMAZDI"

"Filmlərdə, kitablarda, II Dünya Savaşının iştirakçılarının söhbətlərində istər-istəməz insanın beynində, düşüncəsində müharibə canlanır. Amma müharibənin içində olmaq başqadır", - deyən müsahibimiz əlavə etdi ki, nə qədər ağrı, acı olsa da, ordunun ruh yüksəkliyini saxlamaq lazım idi: "Əsgərlərin qida təminatı vaxtında olmalı idi. Təminat yolu isə ermənilər tərəfindən daim vurulurdu. Təminat yolu da birdir. Yemək maşını sürətlə gedir, istər-istəməz yayına bilir. Su ağır olduğu üçün su maşınını sürətlə sürmək də olmur. 20 tonluq su maşınından söhbət gedir. Təminat maşınında hər dəfə bir gizir də gedir. Bir dəfə maşını vurdular, gizir ağır yaralandı. Gecə rəhmətə getdi. Ani də olsa, döyüş yoldaşlarında ruh düşkünlüyü yarandı. Bizə isə ruh düşkünlüyü yaşamaq olmazdı. Çünki qisasımızı almalı idik. Ruh yüksəkliyi əsgərlərdə qısa zamanda qaldırılırdı və qələbə qazandıq".

F.Ağayev bildirdi ki, döyüşdə iştirak edən hər kəsdə qələbə arzusu yüksək olduğu üçün çətinliklər gözə görünmürdü: "Döyüşçülərimizə baxanda görürdün ki, hər bir əsgər illər boyu bu qələbəni arzulayıb. Hava soyuq, yağışlı olurdu, amma bu çətinliklər gözə görünmürdü. Heç kim döyüş mövqeyini tərk etmək istəmirdi. Arxadan başqa qüvvə gəlib əvəz edəndə, döyüşənlər müəyyən qədər istirahət etməli idilər. Amma döyüşçülərimiz istirahətə də getmək istəmirdilər. Yaralılarımız da döyüş bölgəsindən çıxmaq istəmirdilər. İlkin yardım göstərilən kimi "Həkim, yaram yüngüldür, məni incitmir, döyüşə qayıtmaq istəyirəm", - deyirdilər. Bəzən ağır hallar olurdu, həkimlərimiz yaralıları döyüşdən məcbur çıxarırdılar, hospitala yerləşdirirdilər. Hospitalda 2-3 gün qalıb bir az düzələn kimi qayıdırdılar. Bu hallar var ikən döyüşün qələbəsiz başa çatması mümkün deyildi".

### "HİSS EDİRDİK Kİ, XALQIMIZ ORDUMUZLADIR"




"Arxa cəbhədəki insanların dəstəyi isə döyüşənlərin gücünə güc qatırdı", - deyən F.Ağayev bunu müharibənin ilk günlərindən hiss etdiklərini bildirdi: "Müharibə yeni başlamışdı, Naftalanda idik. Gəncədən bir sahibkar maşınını qida məhsulları, isti geyimlərlə doldurub gəlirdi. Biz qışqırırdıq ki, bura mərmi düşür, girmə. Məcbur keçirdi, maşının arxa qapısını açırdı, qazı basıb sürətlə gedirdi. İçindəkilər yerə tökülürdü. 2-3 gün keçirdi, yenə gəlirdi. Dövlət hər şeyi artıqlaması ilə təmin edirdi, amma insanlar da nələrsə etmək üçün çalışırdılar. Bir dəfə Gəncəyə silah gətirməyə getdik. Tapşırıq verilib ki, cəld getməli, qısa zamanda qayıtmalıyıq. Yol kənarında yaşlı qadınlar, uşaqlar əllərində zənbildə nələrsə gətirmişdilər ki, bizə versinlər. Bizə də təlimat var, saxlaya bilmərik. Yanımızla səki ilə maşını sürətlə sürür, işarə edir ki, şüşəni aşağı salın. Şüşəni açan kimi əlindəki bağlamanı maşına tulladı. Adamın gözü yaşarırdı. Hiss edirdik ki, xalqımız ordumuzladır".

Müsahibimiz deyir ki, an etibarilə həyatlarının xilas olması halları çox yaşanıb: "Bir dəfə mövqe dəyişəndə maşının qarşısına raket düşdü. Bəxtimiz gətirdi ki, raket partlamadı. Bu, düşmən ordusunun keyfiyyətsiz silahlardan istifadə etdiyinin göstəricisi idi".

Döyüşdə iştirak etdiyindən isə atası və qardaşından başqa yaxınlarından heç kimin xəbəri olmur: "Mən birinci dəfə təlimə cəlb olunanda müharibə ərazisində yox, başqa bir yerdə idik. Ailəm, doğmalarım elə bilirdi ki, həmin ərazidəyəm. Müharibədə olduğumu yalnız atam və qardaşım bildi. Müharibənin sonuna yaxın təsadüfən ailədə hamı müharibədə iştirak etdiyimi bildi".

F.Ağayev müharibə dövründə kifayət qədər yaxşı dostlar qazandığını da bildirdi: "Mən sentyabrın 21-i getdim, dekabrın 30-u tərxis olundum. II Qarabağ Savaşı 44 gün davam etsə də, oradakı insanlarla 44 il yoldaşlıq etmişik kimi gəlir. Təsəvvür edin ki, müharibədə çiyin-çiyinə döyüşən insanların çoxu əvvəldən bir-birini tanımırdı. Amma həmin adamlar sənə görə ölümə getməyə hazırdır. Bir insan öz doğması, əzizi üçün buna gedə bilər, tanımadığı, yaxud qısa müddətdə tanıdığı bir adama qarşı bunu edirsə, bu, onun yüksək keyfiyyətlərə sahib insan, vətənpərvər olduğunun göstəricisidir. Orada bunu çox gördüm və çox dost qazandım. Hazırda zabit yoldaşlarımızla yaxşı ünsiyyətimiz var, tez-tez yığışırıq".

Qeyd edək ki, F.Ağayev Prezident İlham Əliyev tərəfindən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib. Dövlət qulluğunda çalışdığı üçün müharibədən sonra "Dövlət qulluğunda fərqlənməyə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə də təltif olunub.